Göybəy Uluç
Aygün Hüseynli - Dilbər Mehdiyeva - Özcan Qır
İrana İbrahimova - Ceyran Sərxanbəyova

IRK BİTİG

Qədim Uyğur Dilində Yazılmış Fal Kitabı

2-ci nəşr

IRK BİTİG

Qədim Uyğur Dilində Yazılmış
Fal Kitabı

Göybəy Uluç
Aygün Hüseynli
Dilbər Mehdiyeva
Özcan Qır
İrana İbrahimova
Ceyran Sərxanbəyova

Bakı – 2013

Türkcəsi Varkən Topluluğu Yayınları
Betik – 2

www.turkcesivarken.com

Məsul şəxs:
Göybəy Uluç
ulucname@gmail.com

Rəssam:
Kürşad Baytok

1-ci nəşr:
Bakı – İyun 2013

Müəllif hüquqları qorunur. Mənbə göstərilmək və ticarət məqsədi olmamaq şərti ilə, bütün mətnlər azad olaraq istifadə oluna bilər. ©

ÖNSÖZ

2011-ci ildən bu yana qədim türk hərflərinin öyrənilməsi üçün bir çox çalışmalar aparır; kurslar açır, toplu şəkildə öyrənilməsinə çalışıram. İlk kursumu (bundan sonra **öyrənək**[1] deyəcəyəm) 2011-ci ildə İğdırda uşaqlara keçdim[2]. Buradakı təcrübələrimi bir gündəliyə yazıb, hansı hərfin daha öncə öyrənilməsinin vacib olduğunu, hansı hərfin öyrənilməsinin çətin və ya asan olduğunu dəqiqləşdirib qeyd etdim. 2012-ci ilin sonlarına doğru, daha da irəliləyib, **Türkəm Dərshanəsi** ilə razılaşdıq və Göytürkcə üzrə ödənişsiz dərslərə başladıq. Beləcə, Azərbaycanın paytaxtı Bakıda ilk dəfə Göytürkcə üzrə öyrənək açılmış oldu[3] [4]. Bu, Bakıdakı I öyrənək, mənim üçün isə II öyrənək oldu.

2013-cü ilin yanvar ayında bir imtahan keçirərək, II öyrənək iştirakçıları məzun oldu. Beləliklə konkret bir iş görmüş olduq və özümüzü sübut etdik. Bu da III dəfə açılmasına maraq və tələb yaratdı. Açdığımız birinci öyrənəyimizə 90 nəfərin baş

---

1 **Öyrənək**: Yetiştirmə, öyrətim, alıştırma. [TDK Derleme Sözlüğü c: 9] Biz bu sözü **kurs** mənasında işlədirik.

2 http://kokturukce.blogspot.com/2011/07/cocuklara-gokturkce-ogretme-deneyimi.html

3 http://kokturukce.blogspot.com/2013/02/bakude-gokturkce-kursu.html

4 http://dilcilik.blogspot.com/2013/02/goyturk-dili-kursunda-ilk-sertifikatlar.html

vurub məlumat almasına qarşılıq, II öyrənəyimizə 180 nəfər baş vurdu. Bunlardan 40-a qədəri qeydiyyata düşdükdən sonra 27-si öyrənəyin sonuna qədər iştirak etmişdir.

Bakıdakı I öyrənəyi bitirənlərin bəziləri ilə yeni bir qrup yaratdıq: *Tərcümə Qrupu*. Məqsədimiz **Irk Bitigi oxumaq və Azərbaycan dilinə tərcümə etmək** idi. **Bacardıq**. Buna bir azdan qayıdacağam amma ondan əvvəl digər çalışmalarımızdan yazmalıyam.

Bakıdakı II öyrənək iştirakçıları ilə yeni bir işə girişdim. Bu çalışmam, **bütün bir öyrənəyi başdan ayağa çəkib internetdə yayınlamaq** idi. Bütün öyrənəkləri olmasa da, 5 dərsi çəkə bildik. Təbii ki, asan olmadı. Şəraitin çox da ürəkaçan olmamasına baxmayaraq, yaxşı bir şey bacardığımıza inanıram. Haz-hazırda bu videolardakı[5] öyrənəyi izləyərək Irk Bitig üzərində işləyə bilər, onu oxuyub anlaya bilərsiniz.

7 mart 2013-cü ildə isə keçirdiyim imtahanla Bakıdakı II öyrənəyimizi də bitirmiş olduq. **İmtahanın birinci sualı Irk Bitigdəki bir ırkın oxunmasını tələb edirdi.** İştirakçılar 7 günlük dərslə belə bunu asanlıqla bacardılar.

Bununla kifayətlənmədik. Bakıdakı III, öz adıma isə IV olan öyrənəyi də 09.04.2013-ci il tarixində başlatdıq. Doğrusu, daha öncəkilərlə müqayisədə iştirakçıların sayı az olsa da təşkil etdiyim 6 dərs müddətinə hərfləri oxuya bilmə bacarığına yiyələndilər. Latın hərflərini göz önünə gətirdiyimizdə, ibtidai

[5] http://www.youtube.com/watch?v=ER5ZpxKIeyc

sinif şagirdlərinin 5-6 aya oxuyub yazmaq qabiliyyətlərinə yiyələnmələri öz əlifbamız olan Türk damğalarında[6] 6 dərsə uyğun gəlməkdədir. Deyilə bilər ki, bunda iştirakçıların yaşları, bilikləri önəmli yer tutur. Halbuki iştirakçıların yaşının böyük olduğunu nəzərə alsaq belə, İğdırdakı ilk təcrübəmdə kəndli uşaqların öyrənmələrini fərəhlə deyə bilərəm. Bunlar arasında latın əlifbasını bilməyən, 5 yaşlı bir qızımız (adı Kübra) var idi. Bu baxımdan, damğalarımızın yüksək sürətlə öyrənilməsi, çağdaş dövrümüz üçün, neçə əsr bundan qabaq ulu babalarımızın kəşf etdiyi qeyri–adi bir şeydir.

Qayıdaq Bakıdakı I öyrənəyin iştirakçılarına...

Bakıdakı I öyrənəyimizi bitirən yoldaşlardan bir qrupu, bu işi davam etdirmək istədilər. Daha öncə heç bir təcrübəm olmadığı üçün, nə edəcəyimi bilmədim. İlk öncə, Türk ellərində ən məşhur olan yazıları damğalarla yazmaq üzərində dayandıq. Bir müddət sonra **Dədə Qorqud Kitabı** üzərində dayansaq da, **Irk Bitig** üzərində işləməyə qərar verdik. Beləliklə, həm qədim Uyğur türkcəsini tanıyacaq, həm də Azərbaycan dilçiliyinə yeni bir əsər qazandırmış olacaq idik. Bu məqsədlə yola çıxdıq. **Bacardıq**.

Hal-hazırda əlinizdə tutduğunuz bu kitab, bu uğurumuzun nəticəsidir. Ulu babalarımızın əsrlər əvvəl yazdıqları, oxuyub əyləndikləri və bəlkə də, ümidləndikləri bu əlyazmanı biz gənclər yenidən oxuyub, Azərbaycan torpaqlarında yenidən

---

[6] **Damğa** sözü **hərf** deməkdir və bundan sonra damğa dedikdə bir başa qədim hərflərimiz başa düşülsün.

gün işığına çıxartdığımız üçün çox sevincliyik. Bu qüruru yaşamaqdan böyük həzz duyuruq.

***

Çalışma qrupunda yer alan bütün yoldaşlarıma təşəkkür edirəm. Xüsusilə də, ən çox əmək sərf edən **Aygün Hüseynliyə** minnətdarlığımı bildirirəm. Marağını və dəstəyini əskik etməyən **İrana İbrahimovaya**, qrupumuza sonradan qoşulan və həyacanımızı davam etdirən **Dilbər Mehdiyevaya**, səssizcə öz işini görən **Özcan Qıra** və son olaraq, sevinci ilə bizi canlı tutan ən kiçiyimiz **Ceyran Sərxanbəyovaya** təşəkkür edirəm.

Göybəy Uluç
Bakı – 2013



Ümumi məlumat

Irk Bitigi, Macar əsilli tədqiqatçı Aurel Stein, 1907 –ci ildə Çinin Qansu əyalətindəki Dunhuang şəhərində yerləşən Bin Buda Mağaralarında tapmışdır. İndi isə, İngiltərənin London şəhərindəki Britaniya Muzeyində **Şərq yazılı abidələri** bölməsində 8212 sayı ilə saxlanılır.[7]

Əlyazma 13.6x8 sm ölçülərində olub, 57 səhifədən ibarətdir. Səhifələrin hər iki üzü də işlədilmiş və cildlənməmişdir. X əsrdən daha əvvəl yazıldığı güman edilir. Neçənci ildə yazıldığı mövzusuna irəlidə qayıdacağıq.

İndiyə qədər **Vilhelm Tomsen**dən başlayaraq **Hüseyn Namiq Orxun**, **Sergey Malov**, **Tetsuro İkeda, Tələt Təkin**[8]**, Əlisa Şükürlü, Yusif Məmmədov və Əbülfəz Rəcəbov** tərəfindən araşdırılmışdır. Son olaraq isə, bizim tərəfimizdən Azərbaycanda gündəmə gəlmiş və işıq üzü görmüşdür.

Mənşəyi

Irk Bitig **Fal Kitabı** adı ilə dilimizə tərcümə edilir.

İlk söz olan **ırk (irq),** fal deməkdir. **Soy, mənşə** mənasını ifadə edən söz dilimizə sonradan keçmədir. İrq sözünün ərəbcə mənası **bitkinin kökü** deməkdir. Dildə çox işləndiyi üçün

---

7 http://idp.bl.uk/idp.a4d – Britaniya muzeyi.

8 Bu kitabdakı lüğət, Tələt Təkinin kitabındakı lüğətdən istifadə olunaraq hazırlanmışdır.

əlavə məna da qazanmışdır. Ərəb mənşəli söz (عرق), XVI əsrdə dilimizə keçmişdir[9]. O dövrə qədər **irq**, dilimizdə **fal** sözü kimi istifadə edilmişdir.

Azərbaycan dilində sözün əvvəlində /ı/ hərfi işlədilmir, bunu bilirik. Amma biz, orijinallıq pozulmasın deyə bütün mətnlərdə **ırk** sözünün qədim formasını saxladıq.

Bitig sözü isə **kitab** kimi tərcümə edilir. **Bitig** sözü özündə **bütün yazılı materiallara** verilən ümumi bir addır. Irk Bitig də kitab şəklində tərtib olunduğu üçün **bitig** sözü kitab sözü ilə tam əvəz olunur.

Irk Bitig sözündə /e/ səsini göstərən xüsusi bir hərf olmadığı üçün, bu səsin yerinə /i/ hərfindən istifadə edilmişdir. Bəlkə də /e/ səsi, uyğurlarda yox idi, bəlkə də var idi. Dəqiq bilmirik. Necə ki bugün Türkiyə ilə Azərbaycan qonşu olmasına, eyni soydan gəlməsinə baxmayaraq, ortaq olmayan səs sisteminə sahiblərsə, keçmiş vaxtlarda yazılan yazılarda da belə fərqlənmələr ola bilər. Çünki Yenisey abidələrində /e/ səsi və damğası varkən, Orxon abidələrində, o cümlədən Irk Bitigdə görmürük. Bu səbəbdən də yazmaq mənasında olan **beti** feli, **biti** olaraq istifadə edilmişdir. **Betik** sözü bugün Türkiyədə daha çox **script** sözü yerinə bilgisayar termini olaraq işlədilsə də, Türk ellərində bet (səhifə) sözü geniş bir istifadə sahəsi tapmaqdadır. Bununla yanaşı, Türkiyənin Ankara şəhərində **bet** (səhifə) kökündən gələn **betlək** sözü vardır ki, bu da **dəftər** mənasına gəlir. **Bet** sözü günümüz türk dillərində hələ də

[9] Câmi-ül Fürs [1501], Necati Dəmir, Harvard 2002

işlədilir. Uyğurlar **vebsaytı** yerinə **tor beti** deyir. Qaraqalpaqlar **əsas səhifə** mənasında **baş bet** yazırlar. Bu nümunələri sadalayıb artırmaq olar.

Orijinallığı

Irk Bitigin özünəməxsus tam bir orijinal əsər olmadığını düşünənlər olsa da, biz tamamilə orijinal olduğunu düşünürük. Belə düşünməmizə səbəb isə, ırkların dağınıq olması, bəlli bir qayda və nizamda yazılmamış olmasıdır. Üstəlik, cildlənməmiş olmasına baxmayaraq, əlimizdə olan Irk Bitigin bir işləmə bələdçisi var. Səliqəsizliyi və ırkların sıraya düzülməmiş olması əsərin yığılma ərəfəsində olduğunu düşündürür.

Şəkil 1: Irk Bitigin orijinal səhifələrindən biri.

Əsərin sonunda kim üçün və nə üçün yazıldığı qeyd olunmuşdur. Əgər tərcümə əsəri olsaydı, **Sanqun İtəçuk üçün yazdım** deyil, **tərcümə etdim** yazılardı.

Orxon abidələri ilə müqayisədə, səliqəsizliyin olduğu görülür. Əslində belə də fikirləşməmək lazımdı. Çünki Orxon abidələri rəsmi dövlət sənədləri sayılır. Üstəgəl daş üstünə yazılır. Bir hərfi daşa yazana kimi, o hərfin düz, ya da səhv olduğunu fərq edə bilər və tezliklə dəyişiklik edə bilərsən. Amma kağız üstündə və sürətlə yazanda, səhvlərini görmək o qədər asan olmur. Bu baxımdan əsərin yığılma ərəfəsində olduğuna əminik.

Əsərin Yi Çinq-dən[10] (Dəyişmələr Kitabından) tərcümə olunaraq yazıldığını deyənlər də var.

"Mətnin mənşəyinin eramızdan əvvəl 2852-2738 illərində yaşadığı söylənən məşhur müdrik Fu Hsiyə dayandığına inanılmaqdadır. Fu Hsi 8 trigramı kəşf etmişdir. Kral Ven onu qısqanan bir imperator tərəfindən 11 il heps edilənə qədər, yəni eramızdan əvvəl 1150-ci illərdə trigramların iki ayrı tənzimlənməsindən istifadə etməkdə idi. Kral uzun həbs illərini Yi Çinqi fəlsəfi yöndən inkişaf etdirməklə keçirdi. Bunu da 8 trigramı 64 altı xətt altıbucağına əlavə etməklə bacardı. Altıbucaqlıların məntiqi və sirli fəlsəfəsini də şərh etdi. Onun çalışmaları Yi Çinq haqqında ən öyrədici mənbə kimi qaldı. Və illər ərzində inkişaf etdirildi. Venin oğlu Tan bunlara yenilərini əlavə etsə də, bu yazarların çalışmalarını nizama

[10] http://tr.wikipedia.org/wiki/Yi_Çing

salan Konfiçyusdur. Yi Çinqi ilk dəfə ***dəyişmə*** *olaraq adlandıran və bundan sonra daha da inkişaf etdirən, yenə Konfiçyusdur."*

Yi Çinq 64 mətndən ibarətdir. Və xüsusi olaraq insanın özünü inkişafından söhbət aparır. Irk Bitigdə isə, taledən, bəxtdən danışılır. Irk Bitig, ehtimal ki, təsirlənilib. Çünki riyazi hesaba görə ırkların sayı 64 olmalıdır. Amma mətinlərin 67-yə kimi çıxdığını görürük. Bu da, üzərində çalışmaların davam etdiyini, nizama salma prosesinin getdiyini və orijinal olduğunu göstərir. Təsirlənmək, orijinal olmadığı mənasına gəlmir. Yoxsa bütün mahnılar, bütün eşq romanları orijinallığını itirər.

Yazı

Irk Bitig, türk damğaları ilə yazılmışdır. Betiyin (kitabın) başındakı Çincə mətnlər mövcuddur və sonradanmı əlavə olunub, həmin vaxtdamı yazılıb, bu haqda dəqiq məlumat yoxdur. Belə ki, əlyazmanın əvvəlindəki Çin dilində olan mətn müasir dövrdəki elmi məqalələrdə olan xülasələrə bənzəyir. Necə ki indiki elmi məqalələrin sonuna ingiliscə və rusca xülasələr əlavə edilir, o dövrdə də Çin mədəniyyətinin təsiri ilə belə əsərlərə, abidələrə, çincə əlavələrin edilməsi heç də təsadüfü deyildir. Ümumiyyətlə, bunları demək olar:

/e/ səsini göstərən damğa yoxdur. Bu səsin olduğu sözlər, /i/ səsi ilə əvəz olunmuşdur.

/ş/ səsinin varlığı dəqiq deyil. Sonradan əmələ gəlmiş /ş/ səsi Irk Bitigin yazıldığı dövrdə həmin dildə dəqiqlik qazanmamışdı. Qazanmış belə olsa, bu yazıda əks etdirilməmişdir. Buna görə də /ş/ səsi yerinə /s/ səsini göstərən 𐰼 və 𐰽 damğaları işlədilmişdir.

/r/ səsini bildirmək üçün işlədilən 𐰺 hərfi bizi məsələyə başqa yöndən baxmağa vadar edir. Tədqiqatçılar ümumi olaraq, Irk Bitigi X əsrə aid etsələr də, /r/ səsi üçün işlədilən 𐰺 damğası bunun tarixini daha da qədimlərə aparır. Çünki /r/ səsi /l/ səsindən törəmə olduğu üçün 𐰸 hərfinin ortasına çəkilən bir xətt ilə 𐰺 hərfi yaradılmışdır. Əslində, bu hərf Orxon abidələrində /ş/ səsini bildirir. Bu da bizi əlyazmanın tarixinin çox daha əvvəllərə, keçid mərhələsinin olduğu bir zamana aparır. Belə düşünməyimiz ona görədir ki 𐰺 hərfi Orxon abidələrində /ş/ səsini bildirməkdədir. Demək, o dövrdə də yazıda vahid qayda yox imiş. Orxon abidələrinin yazıldığı dövrdə isə dəqiq işləmə olmuşdur. Bu da bizi Irk Bitigin keçid dövrünün məhsulu olduğunu düşünməyə vadar edir. Ancaq bunu da bilirik ki, o dövrdə dili tənzimləyən bir qurum yox idi və insanların bir-birləri ilə əlaqəsi də bugünkü kimi geniş deyildi. Bu da eyni dövrdə yaşayıb fərqli düşünən, müxtəlif metodlar yaradan insanların olmasına şərait yaradır. Bunun o dövr insanlarının yeni səslərə qarşılıq tapma probleminə olan ehtiyacından yarandığını düşünə bilərik. Amma biz yenə də hərflərin vahid yazı qaydasının hələ sabitləşməməsinə və keçid dövründə olduğuna ehtimal veririk.

Irk Bitigdə Orxon abidələrindən fərqli olaraq /ot/ hərfi 𐰺 və /up/, /üp/ səsini verən 𐰼 hərfi vardır.

Keçmiş zaman şəkilçisi **-mis**, qaydasız istifadə olunub. Bəzi yerdə 𐰣𐰸𐰾 **mis**, bəzi yerlərdə də 𐰣𐰾 **m^{i}s** kimi yazılmışdır. Əsasən 𐰣𐰸𐰾 **mis** formasında olub.

Yaylaq sözü bəzi yerdə 𐰸𐰃𐰞𐰞 **y^{a}yl^{a}q** bəzi yerdə 𐰸𐰃𐰞𐰸𐰞 **yayl^{a}q** kimi yazılıb. İlk hecada saitin yazılma qaydası çox dəfə pozulub. **Ara** sözü bəzən 𐰸𐰇 **^{a}ra** bəzən də 𐰸𐰇𐰸 **ara** olaraq qarşımıza çıxır.

İndiki zaman şəkilçisi olaraq iki heca görürük. Biri incə sözlərdə işlədilən -**yür**, o birisi də qalın hecalarda işlədilən -**yur**. 24-cü ırkda **tiləyür** sözü işlədilir. Bugünkü **diləyir** sözünün qədim formasıdır. 40-cı ırkda **yorıyur** sözü var, hazırki **yeriyir** sözünün qədim formasıdır. Türkiyə türkcəsindəki **yürüyor** sözünün də qədim formasıdır. Beləliklə, həm Türkiyə türkcəsində işlədilən -**yor** şəkilçisinin, həm də Azərbaycan türkcəsində işlədilən və 4 növü olan indiki zaman şəkilçilərinin mənbəyinin eyni olduğunu görürük. Bunu xüsusi olaraq qeyd edirik, çünki heç bir elmi dayağı olmadan, xalq arasında Türkiyədə işlədilən indiki zaman şəkilçisi -**yor**un, yunanların təsirindən qaynaqlandığını deyənlər var. Bundan başqa, Türkiyə türklərinin dildəki ahəng qanununu pozduqlarını səsləndirənlər də var. Halbuki, Irk Bitigdə keçmiş zaman şəkilçisinin bir formada olduğunu və yalnız -**mis** kimi işlədildiyini görürük. Bu şəkilcidə ahəng qanunu hələ yaranmayıb və özündən əvvəlki saitə görə formalaşmayıb.

İndiki zaman şəkilçilərində isə incə və qalınlara görə dəyişən iki forma yaranıb. Sonrakı əsrlərdə babalarımız, keçmiş zaman şəkilçilərində bütün səs ahəngini yaradıb və 4 formada şəkilçi əmələ gətiriblər. Azərbaycanda yaşayan babalarımız indiki zaman şəkilçisini də bütün səslərə görə formalaşdırıblar. Amma Anadolu tərəfindəki babalarımız isə, daha qədimdə 2 növü olan şəkilçini vahid edib və sadəcə olaraq -**yor** formasında işlədib. Necəki -**mis** forması bütün sözlərdə işlədilirdi, hal-hazırda -**yor** forması da bütün sözlərdə işlədir. Bu, pozuntu deyil. Dildə dəyişmələr həmişə olar və ləhcələr arası müqayisələr aparmaq düz deyildir. Bir ləhçəyə baxıb, digərinə səhv demək, elmi cəhətdən səhvdir.

Tarixi

Irk Bitigdəki hərf və səs dəyişmələrinə baxanda Orxon abidələrindən çox sonra yazıldığını dəqiq deyə bilərik. /r/ səsinin hərflərdə necə törədildiyini yazdıq, /ş/ səsinin damğalarla göstərilmədiyini və ləhcə fərqindən dildə yaradılmadığı, bəlkə də, o dövr uyğurlarında /ş/ səsinin əmələ belə gəlmədiyini qeyd etdik. İndisə **kod-** feli və **ayak** sözləri üstündə dayanacağıq.

Çağdaş dilimizdə işlətdiyimiz bəzi /y/ səsləri qədimdə /d/ səsi ilə ifadə olunurdu. Məsələn, **ayırmaq** feli qədimdə **adırmaq** idi. O cümlədən **qoymaq** feli **kodmak**, **ayaq** sözü də **adak**[11] formasında idi. Amma Irk Bitigdə keçid mərhələlərinin izini görürük.

[11] Orxon Abidələri [732-735], Tələt Təkin, TDK 2008

42-ci ırkda belə bir söz işlədilib: 𐰀𐰇𐰚𐰃𐰚𐰇:𐰀𐰇𐰇𐰆 **ayakın kodupan**. Burada **adak** sözü **ayak** kimi işlədilərkən, **kodmak** sözü hələ də /d/ səsini saxlayıb və **koy-** (qoy-) formasına girməyib. **Kodmak** felinin **koymak** formasını *Divanı Lüğətit Türk*də görürük[12].

Bu səs dəyişmələrini əsas götürəndə Irk Bitig Orxon abidələri ilə Divanı Lüğətit Türk-ün yazıldıqları dövrün ortasında bir yerdədir.

Irk Bitigin bitirmə hissəsi olan son mətnində belə bir cümlə işlədilir:

𐰉𐰇𐰇𐰋 𐰴𐰇𐰇𐰋:𐰇𐰇𐰋:𐰆:𐰇𐰆 𐰋𐰇𐰇𐰇:𐰃𐰇𐰆:𐰋𐰇𐰃

bars yıl ekinti ay bis yigirmike (pələng ili, ikinci ay, on beşinə)

Bəzi araşdırmacılar[13] bu sözə əsaslanaraq tarixi müəyyənləşdirir. **Luiz Bazin** 17 mart 930 ya da 4 mart 942-ci ildə yazılmış ola biləcəyini iddia edir. **Marsel Erdal** isə, VIII əsr ilə IX əsr arasında yazıldığını qəbul edir. Yenə **Tələt Təkin** də IX əsrin ortalarında yazıldığı fikrini bildirir.

---

12 Divanı Lüğətit Türk [1070], Besim Atalay, TDK 1941

13 Irk Bitik, Tələt Təkin, Ankara, Öncü Kitab 2004

Irka (fala) necə baxılır?

Irk Bitigdə proses belə sıralanır:

1. Irk (fal) çubuqları/ çubuq atılır.
2. Gələn nömrəyə görə ırk oxunur.
3. Irkın yaxşı və ya pis olması bildirilir.

Çubuq üstündəki nöqtə sayları (bundan sonra **olcay**[14] **sayıları** olaraq yazacağıq) 3 dənə olmalıdır. Hər nömrə isə özlüyündə 1, 2, 3 və ya 4 ola bilər. 4 üzü olan bir çubuğu 3 dəfə atıb, olcay saylarının çıxmasını istədiyimizdə sadə bir riyazi hesablama ilə 4x4x4=64 hesablanır. Bu o deməkdir ki, 64 dənə ırk ehtimalı ola bilər. Bu sadə hesablama üzərində ırkların yazıldığı düşünülsə də, ümümilikdə 65 ırkın olması bu qaydanı pozmuşdur. Ayrıca 1-1-3, 1-2-4 və 3-1-1 olcay sayları əksik ikən, 1-1-4 ilə 3-1-3 ırkları artıqdır. 3-4-1 sayı isə, 3 dəfə təkrarlanmışdır. Bu təkrarlanmalarda mətnlər fərqli, sadəcə olaraq olcay sayları eynidir. Atılan ırklarda bir-birinin eyni olan olcay saylarından hansı ilk oxunacaq?

Nizam yoxdur!

Çubuğu, ya da çubuqları (bu mövzuya qayıdacağıq) atıb olcay saylarını çıxardıqdan sonra ırkı tapmaq üçün bütün səhifəni axtarmalı və göz gəzdirməliyik. Çünki sayların düzülüşündə bir qayda yoxdur. 1-1-1, 1-1-2, 1-1-3, 1-1-4, 2-1-1... kimi bir sıralama olsa idi, asanlıq və nizam olardı.

---

[14] **Olcay**: bəxt, şans. - TDK Güncel Sözlüğü

Olcay sayları ilə, nəticə arasında heç bir əlaqə yoxdur. Tək nömrələrin yaxşı, cüt nömrələrin pis çıxdığı kimi bir nəticəyə gəlmək olmaz. Bu, bir baxımdan yaxşıdır, yoxsa çubuqlar atılıb, nömrələr çıxdıqdan sonra ırkı öncədən bilən biri, ırkı oxumadan nəticənin nə olacağını bilərdi.

Çubuqlar

Çubuqların sayı önəmlidir. 1 yoxsa 3 dənə olması isə düşündürücüdür. 1 dənə çubuğun 3 dəfə atılması və hər gələn sayıların sıraya qoyulması olcay sayısının əmələ gəlməsi gözlənər. 3 çubuq varsa, 3-ü də birdən havaya atılar və yerə düşən çubuqlarda görülən saylar qəbul edilər.

3 çubuq olmağında bir problem var. Havaya atılan çubuqlar yerə düşdükdə dağınıq olur. Bəs bunlar hansı qaydaya görə oxunur? Yazı qaydamız sağdan sola olduğu üçün, çubuqların da yönümü belə başa düşülməli deyə düşünürük. Çox böyük ehtimalla burada tək çubuq olmalıdır amma 3 çubuq olmaması ilə bağlı dəqiq bir şey də deyə bilmərik.

Biz 3 çubuq ola biləcəyi ehtimalı üzərində dayandıq və özümüz bu 3 çubuğu hazırladıq. Keçmişdə nə cür ola biləcəyi haqqında dəqiq bir biliyimiz yoxdur. Daşdan da istifadə edilmiş ola bilər, odundan da. Bəlkə də, bu bir sümük idi. 4 fərqli say olması üçün 4 üzü olan bir əşya olması gərəkdiyindən, indiki zərlər kimi 6 üzü olan bərəbər tərəfli dördbucaq deyil, dörd tərəfi olan dördbucaqlı ola biləcək istənilən əşya olma ehtimalını qəbul edirik.

Şəkil 2: Olcay çubuqları

Qeyd etdiyimiz kimi, çubuq olduğunu bilirik amma uzunluğunu, qalınlığını, həcmini və nə ilə düzəldildiyini dəqiq bilmirik. Biz, bu barədə bir təxmin yürütdük və taxtadan istifadə edərək çubuqlar düzəltdik. Taxtaları şəkilləndirəndən sonra odda qızdırdığımız mıxı, çubuqların üstünə basdıraraq nöqtələr əmələ gətirdik. Beləliklə *Şəkil 2*-də görünən çubuqları yaratdıq.

Irk Bitigin məzmunu

Ümumi 67 maddədən ibarət olmasına baxmayaraq, bunların 65-i ırk olub, 2-si də sonluq xarakterli nəticədir. 65 ırkdan 39-u müsbət, 19-u mənfi, 7-si də şərhsizdir.

Sonuclar, *an͡yıg edgü ol* (çox yaxşıdır), *edgü ol* (yaxşıdır) deyə iki müsbət söz ilə bitərkən; *an͡yıg yablak ol* (çox pisdir), *yablak ol* (pisdir), *yabız ol* (bərbaddır) deyə 3 mənfi sonluqla bitir.

Nəticə	Sayı	Faiz
Müsbət	39	%60
Mənfi	19	%29
Şərhsiz	7	%11

4 ırkda **çox yaxşıdır** (an͡yıg edgü ol) yazılmışdır.
(ırk: 5, 18, 55, 64)

1 ırkda **qazancı var, yaxşıdır** (asıqı bar edgü ol) yazılmışdır. (ırk: 32)

1 ırkda **bu ırkın başında az sıxıntısı var, sonra yenə yaxşı olacaq** (bu ırk basınta āz emgeki bar kin yana edgü bolur) yazılmışdır. (ırk: 57)

33 ırkda **yaxşıdır** (edgü ol) yazılmışdır.
(ırk: 1, 2, 3, 7, 11, 15, 17, 19, 20, 23, 26, 27, 28, 29, 30, 31, 34,

35, 38, 40, 41, 42, 47, 49, 52, 53, 54, 56, 58, 59, 60, 62, 63)

1 ırkda **çox pisdir** (an͡ɣıg yablak ol) yazılmışdır.
(ırk: 36)

1 ırkda **kədərlidir, çox pisdir** (mun͡qluq ol an͡ɣıg yablak ol) yazılmışdır. (ırk: 22)

4 ırkda **bərbaddır** (yabız ol) yazılmışdır.
(ırk: 12, 24, 44, 45)

13 ırkda **pisdir** (yablak ol) yazılmışdır.
(ırk: 6, 8, 9, 16, 25, 33, 37, 39, 43, 46, 50, 61, 65)

7 ırk şərhsiz buraxılmışdır.
(ırk: 4, 10, 13, 14, 21, 48, 51)

IRK BİTİG ƏLİFBASI

Samitlər				Saitlər	
İncə		Qalın			a/e
	eb		ab		ı/i
	ed		ad		ü/ö
	eg		aq		u/o
	ek		ak		
	el		al		
	en		an		
	er		ar		
	es		as		
	et		at		
	ey		ay		
Tək səslilər					
	aç		anç		
	em		ənq		
	ap		ant		
	az		any		
	ök		ok		
	ot				

IRKLAR

1-ci ırk



oo oo oo

t^{e}nsi : m^{e}n : $y^{a}r^{ı}$n : kiçe : ^{a}ltun : örgin :
üze : oluru͡p^{a}n : m^{e}n͡qil^{e}yür : m^{e}n : ^{a}n͡ça :
bilin͡ql^{e}r : ^{e}dgü ol :

Mən tənsiyəm[15] [16]. Gecə gündüz qızıl taxt üzərində oturub xoşbəxt oluram. Belə bilin ki, yaxşıdır.

---

[15] Göyün oğluyam.

[16] Uyğurların yuxu yozumuna görə, yuxuda Çin imperatoru görmək, varlanmaq və uzun ömür xəbəri verir. - Bu və bundan sonra deyəcəyimiz yuxu yozumları haqqındakı məlumatlar, Ə. Rəcəbli və Y. Məmmədovun *Orxon -Yenisey Abidələri* kitabında verilib.

2-ci ırk



oooo oooo oooo

ala : ^{a}tl^{ı}q : yol : t^{e}ńq͡ri : m^{e}n : y^{a}r^{ı}n : kiçe :
^{e}sür : m^{e}n : utru : ^{e}ki : y^{a}l^{ı}q : kisi : oqlın :
soo͡kusmis : kisi : korkmis : korkma :
timis : kut : birg^{e}y : m^{e}n : timis : ^{a}ńç͡a :
bilińq͡ : ^{e}dgü : ol :

“Ala atlı yol tanrısıyam. Gecə gündüz at çapıram. Qarşıda iki gülərüz insan oğluna rast gəlir. İnsanlar [ondan] qorxur” deyir. Qorxma, [sizə] xoş bəxt verəcəm. Belə bilin ki, yaxşıdır.

3-cü ırk



ooo ooo ooo

^{a}ltun : k^{a}n^{a}tl^{ı}q : t^{a}l^{ı}m : k^{a}ra : kus : m^{e}n :
t^{a}n^{ı}m : tüsi : t^{a}kı : tüke : m^{e}zk^{e}n :
t^{a}luyda : y^{a}t^{ı}p^{a}n : t^{a}pladuk^{u}min :
tut^{a}r : m^{e}n : s^{e}bdü͡k^{ü}min : yiyür : m^{e}n :
^{a}ńt^{a}q : küçlüg : m^{e}n : ^{a}ńça : bilin͡ql^{e}r :
^{e}dgü : ol :

Altun qanadlı yırtıcı qara quşam[17]. Bədənimin tükü hələ çıxmamış dənizdə yatıb xoşum gələni tuturam, istədiyimi yeyirəm, [bax] belə güclüyəm. Belə bilin ki, yaxşıdır.

[17] Yuxuda qara quş görmək, varlanmaq əlamətidir.

4-cü ırk



o o o

ürün͡q : ^{e}sri : toq^{a}n : kus : m^{e}n : çınt^{a}n : ıq^{a}ç :
üze : oluruu͡p^{a}n : m^{e}n͡qil^{e}yür : m^{e}n : ^{a}n͡ça :
bilin͡ql^{e}r : :

Ağ xallı şahin quşam. Səndəl ağacı üstündə oturub sevinirəm. Belə bilin ki...

5-ci ırk

oo oooo oo



oo oooo oo

b^{e}g : ^{e}r : yuntınq^{a}ru : b^{a}rmis : ak : bisi :
kulunlamis : ^{a}ltun : tuyuqluq :
^{a}dqˈrlˈk : y^{a}raq^{a}y : t^{e}besin͡q^{e}rü :
b^{a}rmis : ürün͡q : inq^{e}ni :
botulamis : ^{a}ltun : budlalˈq : buqralˈk :
y^{a}raq^{a}y : ^{e}bin͡q^{e}rü : k^{e}lmis : üçün͡ç : kun͡çuyı :
urılˈ^{a}nmis : b^{e}glik : y^{a}raq^{a}y : tir : m^{e}n͡qilig :
b^{e}g : ^{e}r : ^{e}rmis : ^{a}n͡ıq : ^{e}dgü : ol :

Varlı kişi (bəy) atın yanına gedib [görür ki], ağ madyanı balalayıb. [Ona] altun nallı ayğırlıq yarayar [deyir]. Dəvəsinin yanına gedib [görür ki], ağ dişi dəvəsi doğub. [Ona] altun halğalı buğralıq yarayar [deyir]. Evinə sarı gedib [deyir], üçüncü şahzadəsi oğlan uşağı dünyaya gətirib. Ona bəylik yarayar deyir. Varlı kişi sevincək olur. Çox yaxşıdır.

6-cı ırk



o oo oo

^{a}d^{ı}qlı : tonquzlı : art : üze : soo͡k^{u}smis :
^{e}rmis : ^{a}d^{ı}q^{ı}n͡q : k^{a}rnı : y^{a}r^{ı}lmus : ton͡quzun͡q :
^{a}zıqı : sınmis : tir : ^{a}n͡ça : bilin͡q : :
y^{a}bl^{a}k : ol : :

“Ayı ilə donuz dağ keçidinin üstündə toqquşub. Ayının qarnı yarılıb, donuzun azı dişi sınıb” deyir. Belə bilin ki, pisdir.

7-ci ırk



oo o oo

^{e}r : t^{e}rkl^{e}yü : k^{e}lir : ^{e}dgü : söz : s^{a}b : ^{e}lti : k^{e}lir :
tir : ^{a}ńça : bilińql^{e}r : ^{e}dgü : ol :

“Bir kişi tələsik gəlir, yaxşı söz-söhbət gətirib” deyir. Belə bilin ki, yaxşıdır.

8-ci ırk



o oo ooo

ᵃltun : bᵃslᶦq : yılᵃn : mᵉn :
ᵃltun : kuruqsᵃkᶦmin : kılᶦçın : kᵉsipᵉn :
özüm : yul : intin : bᵃsᶦmın :
yul : ᵉbintᶦn : tir :
ᵃńça : bilińqlᵉr : yᵃblᵃk : ol :

“Altun başlı ilanam, altun qursağımı qılıncla kəsərək nəfsimi qopar inindən (mağarasından), başımı qopar evindən” deyir. Belə bilin ki, pisdir.

9-cu ırk



ooo oo o

uluq : ᵉb : örtᵉnmis : kᵃtın͡qa : tᵉgi : kᵃlmᵃdu͡k :
büü͡kin͡qe : tᵉgi : kodmu͡k[18] : tir : ᵃn͡ça : bilin͡qlᵉr :
yᵃblᵃk : ol : :

“Böyük ev yandı, (birinci) mərtəbəsinədək [heç nə] qalmadı. Küncünədək qalmadı” deyir. Belə bilin ki, pisdir.

[18] **kodmaduk** olmalı, damğası yazılmayıb.

10-cu ırk



oo oooo ooo

^{e}sn^{e}g^{e}n : b^{a}rs : m^{e}n : k^{a}mus : āra : b^{a}s^{ı}m : ^{a}ńt^{a}q :
^{a}lp : m^{e}n : ^{e}rd^{e}mlig : m^{e}n : ^{a}ńça : biliń^{e}l^{e}r : :

Əsnəyən pələngəm[19], qamışların arasından başım (görünür), belə hündürəm, fəzilətliyəm. Belə bilin...

[19] Uyğurların yuxu yozumuna görə, yuxuda pələng görmək yaxşı əlamətdir.

11-ci ırk



oooo oooo oo

s^{a}r^{ı}q : ^{a}tl^{ı}q : s^{a}bçı : y^{a}z^{ı}q[20]: ^{a}tl^{ı}q : y^{a}l^{a}b^{a}ç : ^{e}dgü : söz :
s^{a}b : ^{e}lti : k^{e}lir : tir : ^{a}n͡ça : bilin͡q : ^{a}n͡yıq : ^{e}dgü : ol :

“Sarı atlı sözçü, qəhvəyi atlı elçi yaxşı söz-söhbət gətirərək gəlir” deyir. Belə bilin ki, çox yaxşıdır.

[20] **Yazıq** sözünün **yaqız** olması barədə düşünürük. Çünkü özündən əvvəl gələn sözlərdə **sarıq atlıq** deyir və atın rəngini müəyyənləşdirir. Beləcə **yaqız atlıq** diyərək, o birisi atın rənginin nə olduğunu başa salır.

12-ci ırk



ooo oooo ooo

^{e}r : ^{a}bka : b^{a}rmis : t^{a}qda : k^{a}m^{ı}lmis : t^{e}n͡qride :
^{e}rkl^{i}g : tir : ^{a}n͡ça : bilin͡ql^{e}r : y^{a}b^{ı}z : ol :

“Kişi ova gedib, dağda yıxılıb, Tanrı güclüdür” deyir. Belə bilin ki, pisdir.

13-cü ırk



ooo oooo oo

t^{e}n͡qrilig : kurtqa : yurta : k^{a}lmis : y^{a}ql^{ı}q :
k^{a}mıç : bulup^{a}n : y^{a}lq^{a}yu : tirilmis : ölümde :
ozmis : tir : ^{a}n͡ça : bilin͡ql^{e}r :

“Dindar qoca (tərk edilmiş) yurdda qalıb, yağlı çömçə tapıb yalayır. [Bununla] dirilib, ölümdən qurtulmuş” deyir. Belə bilin ki...

14-cü ırk

oo ooo oooo

kuzqunuq : ıq^{a}çka : bamis : k^{a}t^{ı}qtı : ba : ^{e}dgüti : ba :
tir : ^{a}n͡ça : bilin͡q$^{l^{e}}$r :

“Quzğunu ağaca bağlamış. Sərt bağla, yaxşıca bağla” deyir. Belə bilin ki...

15-ci ırk



o oooo o

üze : tum^{a}n : turdı : ^{a}sra : toz : turdı : kus :
oqı[21] : uça : aztı : kiyik : oqlı : yügürü :
aztı : kisi : oqlı : yorıyu : aztı : y^{a}n͡qa :
t^{e}n͡qri : kutınta : üçün͡ç : yılta : kop : ^{e}s^{e}n :
tük^{e}l : körüsm^{i}s : kop : ögir^{ı}r : s^{e}binür : tir :
^{a}n͡ça : bilin͡ql^{e}r : ^{e}dgü : ol :

“Yuxarı (göyə) duman qalxdı, aşağını (yeri) toz basdı. Quş balası uçub azdı. Maral balası yüyürüb azdı, insan oğlu yeriyib azdı. Yenə Tanrı şans [verdi] üçüncü ildə hamısı sağ-salamat görüşdü, hamısı sevinir” deyir. Belə bilin ki, yaxşıdır.

[21] **oqlı** sözündə 𐰃 damğası yazılmayıb.

16-cı ırk

oo o oooo



oo o oooo

tor^{u}k : ^{a}t : s^{e}m^{i}riti : yirinöp^{e}n : yügürü :
b^{a}rmis : utru : yirde : oqrı : soo͡kusup :
tutup^{a}n : minmis : yilin͡qe :
kudursuqın͡qanın͡qa[22] : t^{e}gi : y^{a}qrıp^{a}n : k^{a}ms^{a}yu :
umatın : turur : tir : ^{a}n͡ça : bilin͡q : y^{a}bl^{a}k : ol :

“Zəif at bordanıb, kökəlib. Başqa yer görüb, [düşünərək] yüyürüb, gedib. [Qarşıda] oğruya rast gəlib. Oğru atı tutub minmiş, saçından quyruğuna qədər yaralanır. At tərpənib durur” deyir. Belə bilin ki, pisdir.

[22] Səhv yazılıb, **kudursuqun͡qa** olmalı idi.

17-ci ırk



oo ooo ooo

üzlük[23] : ᵃt : öńq : yirde : ᵃrᶦp : ońquup : toru : kᵃlmıs : tᵉńqri :
küçińqe: tᵃq : üze : yol : sub : körüpᵉn :
yis : üze : yᵃs : ᵒt : körüpᵉn : yorıyu : bᵃrıpᵃn :
sub : içipᵉn : yas : yipᵉn : ölümde : ozmis :
tir : ᵃńça : bilińqlᵉr : ᵉdgü : ol :

“Kəsilmiş (haldan düşmüş) at quraqlıq yerdə yorulub, bənizi solub, arıqlayıb qalıb. Tanrı güc verib, dağ üzərində yol: su görüb, çayır üzərində yaş ot görüb yeriyib çatıb, su içib, ot yeyib ölümdən qurtulub” deyir. Belə bilin ki, yaxşıdır.

---

[23] **Üzlük** sözünün nə mənaya gəldiyini aydınlaşdıra bilmədik. **Özlük, üzülük, üzülüp** kimi formalarda da oxumaq olar amma cümlədə mənanı vermir. Ən yaxın mənanı Divanı Lüğətit Türk-dəki **üzüklük ازكلك** (kəsilmə) sözü verir və belə olsa, hemin kəlmədə damğasının yazılmadığını da qebul etməliyik.

18-ci ırk



oo oooo o

k^{e}rekü : içi : ne : t^{e}g : ol : tügün^{ü}ki : ne : t^{e}g :
ol : köz^{ü}n^{ü}ki : ne : t^{e}g : körü͡klüg : ol : ^{e}gni :
n^{e}t^{e}g : ^{e}dgü : ol : b^{a}q^{ı}sı : ne : t^{e}g : b^{a}r : ol : tir :
^{a}ń͡ça : biliń͡ql^{e}r : ^{a}ń͡yıq : ^{e}dgü : ol :

“Çadırın içi necə olur, baca necə olur, pəncərə necə olur? Mənzərəli olur. Dam necə? Yaxşıdır. İpləri necə olur? Vardır” deyir. Belə bilin ki, yaxşıdır.

19-cu ırk



oooo o ooo

ak : ^{a}t : k^{a}rs^{ı}sın : üç : boluqta : t^{a}lulap^{a}n : ^{a}q^{ı}nka :
ötüg^{e}ke : idmis : tir : korkma : ^{e}dgüti : ötün :
^{a}yınma : ^{e}dgüti : y^{a}lb^{a}r : tir : ^{a}n͡ça : bilin͡q : ^{e}dgü : ol :

“Ağ at rəqibin üç dəfədə seçib, lala dua etməyə göndərib” deyir. “Qorxma, yaxşı istə. Qorxma, yaxşıca yalvar” deyir. Belə bilin ki, yaxşıdır.

20-ci ırk



oo oo ooo

titir : buqra : m^{e}n : ürüńq : köpükümin :
s^{a}ç^{a}r : m^{e}n : üze : t^{e}ńqrike : t^{e}gir : ^{a}sra : yirke :
kirür : tir : udıqm^{a}q : udq^{u}mur : y^{a}t^{ı}qlıq :
turq^{u}ru : yorıyur : m^{e}n : ^{a}ńt^{a}q : küçlüg : m^{e}n :
^{a}ńça : biliń^{e}l^{e}r : ^{e}dgü : ol :

Dişi dəvəyəm, ağ köpük saçaram; yuxarıda göyə çatar, aşağıda yerə girər” deyir. Yuxuda olanları oyandırıb, yatanları qaldırıram. Belə güclüyəm. Belə bilin ki, yaxşıdır.

21-ci ırk

ooo ooo o

k^{a}rı : üpgük : yıl : y^{a}ru: m^{a}zk^{a}n : ^{e}tdi :
ödm^{e}n͡q : körm^{e}n͡q : ürk^{ü}tt^{e}n͡q[24] : tir : ^{a}n͡ça : bilin͡q :

“Qoca hop-hop quşu, il çatmamışkən oxudu.
Həyacanlanmayın, baxmayın, qorxmayın” deyir. Belə bilin ki...

[24] Səhv yazılıb, **ürkütmen͡q** olmalıdır.

22-ci ırk



o o oo

uzuntonluq : köz^{ü}n͡qüsin : kölke :
ıçq^{ı}nmis : y^{a}r^{ı}n : y^{a}n͡qrayur : kiçe : k^{e}n͡qrenür :
tir : ^{a}n͡ça : bilin͡ql^{e}r : mun͡qluq : ol : ^{a}n͡ʏıq : y^{a}bl^{a}k :
ol :

“Uzundonlu (qadın) güzgüsünü göldə itirib, səhər deyinir, axşam sızlayır” deyir. Belə bilin ki, kədərli olacaq, çox pisdir.

23-cü ırk



oooo oooo oo

oql^{a}n : k^{e}kū̆k : t^{e}z^{e}kin : bultı : çuk[25] : ^{e}tin͡q :
kutluq : bolzun : tir : ^{a}n͡ça : bilin͡ql^{e}r :
^{e}dgü : ol :

“Oğlan şahin təzəyi tapdı. Torağa, ətin mübarək olsun” deyir. Belə bilin ki, yaxşıdır.

[25] damğasının bir xətti unudulduğu üçün, damğa -ya oxşayıb və **çuk** kimi bir söz əmələ gəlib. Halbuki o, **çekik** sözü olmalıdır.

24-cü ırk



ooo o ooo

t^{e}glu͡k : kulun : irk^{e}k : yuńta : ^{e}mig : tileyür :
kün : ortu : yütürü͡p : tün : ortu : k^{a}nta :
n^{e}güde : bulq^{a}y : ol : tir : ^{a}ńça : bilińqlᵉr :
y^{a}b^{ı}z : ol :

“Kor qoduq erkək atı əmmək istəyir. Gün orta itirib gecə yarı harda tapa bilər” deyir. Belə bilin ki, pisdir.

25-ci ırk



ooo o ooo

^{e}ki : öküzüg : bir : buk^{u}rsıka : kölm^{i}s : k^{a}ms^{a}yu :
umatın : turur : tir : ^{a}n͡ça : bilin͡q : y^{a}bl^{a}k : ol :

“İki öküz bir kotana qoşulub, tərpənib durur” deyir. Belə bilin ki, pisdir.

26-cı ırk





oooo oo o

t^{a}n͡q : t^{a}n͡ql^{a}rdı : udu : yir : y^{a}rudı : udu : kün :
toqdı : k^{a}m^{a}q : üze : y^{a}ru͡k : boltı : tir : ^{a}n͡ça :
bilin͡q : ^{e}dgü : ol :

“Dan yeri ağardı, sonra yer üzü işıqlandı, sonra gün doğdu, hər şeyin üzərinə işıq düşdü” deyir. Belə bilin ki, yaxşıdır.

27-ci ırk



oooo oo oo

b^{a}y : ^{e}r : kon͡yı : ürküp^{e}n : b^{a}rmis : börike :
suu͡kusmis : böri : ^{a}qzı : ^{e}msimis : ^{e}s^{e}n :
tüü͡k^{e}l : bolmmis[26] : tir : ^{a}n͡ça : bilin͡ql^{e}r : ^{e}dgü : ol :

“Varlı kişinin qoyunu[27] ürküb gəlib (qaçıb), qurdla rastlaşıb. Qurdun ağzı zəhər kimi acı dadıbmış, [qoyunlar] sağ-salamat olub” deyir. Belə bilin ki, yaxşıdır.

---

[26] Səhv yazılıb – 2 dənə 𐺈 var.

[27] Uyğurlara görə yuxuda qoyun görmək, yaxşı rifahı göstərir.

28-ci ırk



oo o o

k^{a}n : olurú͡p^{a}n : ordu : y^{a}pmis : ili : turmis : tört :
bolun͡qt^{a}kı : ^{e}dgüsi : uyurı : tiril^{i}p^{e}n :
m^{e}ń͡qil^{e}yür : b^{e}dizl^{e}yür : tir : ^{a}ń͡ça : bilin͡ql^{e}r :
^{e}dgü : ol :

“Xan taxta çıxıb şəhər qurdu, eli yüksəlti, dörd tərəfdən yaxşıca güc topladı, sevinir, [hər yanı] bəzəyir” deyir. Belə bilin ki, yaxşıdır.

29-cu ırk

oooo ooo oo

oyma : ^{e}r : oql^{a}nın : kisisin : tutuq : urup^{a}n :
osiç : uy^{a}q : ^{a}lp : b^{a}rmis : oql^{a}n[28] : kisisin :
utuzm^{a}dʉ̀k : y^{a}na : too̅kuzon : bos : kon̅y :
utmis : oqlı : yutuzı : kop : ögir^{e}r : tir :
^{a}n̅ça : bilin̅ql^{e}r : ^{e}dgü : ol :

“İçalat taciri kişi, oğlunu-arvadını əsir buraxıb, [qoyunun] qarnının içi (bağırsaqlarını) oyub, gəlib, oğlunu-arvadını (yarışda) uduzmayıb, yenə doqquz-on sərbəst qoyun udur (qazanır), oğlu- arvadı hamısı sevinir” deyir. Belə bilin ki, yaxşıdır.

[28] Səhv yazılıb – **oqlan** yerine **oqlın** yazılıb.

30-cu ırk



oooo oo ooo

çıq^{a}n͡y : er : oql^{a}n : k^{a}zq^{a}n͡çka : b^{a}rmis : yolı : y^{a}ramis :
ögire : s^{e}binü : k^{e}lir : tir : ^{a}n͡ça : bilin͡ql^{e}r :
^{e}dgü : ol :

“Yoxsul kişinin oğlu qazanca çatıb, yolu uğurlu olub, sevinə-sevinə gəlir” deyir. Belə bilin ki, yaxşıdır.

31-ci ırk



o oooo oooo

b^{a}rs : kiyik : ^{e}n͡qke : m^{e}n͡qke : b^{a}rmis : ^{e}n͡qin : m^{e}n͡qin :
bolmis : yolup^{a}n : uyasın͡q^{a}ru : ögire : s^{e}binü :
k^{e}lir : tir : ^{a}n͡ça : bilin͡q : ^{e}dgü : ol :

“Maral ova-şikara çıxıb, ovun-şikarın tapıb, yuvasına sevinə-sevinə gəlir” deyir. Belə bilin ki, yaxşıdır.

32-ci ırk



o o oooo

bir : $t^{a}b^{ı}lku$: yüz : boltı :
yüz : $t^{a}b^{ı}lku$: min͡q : boltı :
min͡q : $t^{a}b^{ı}lku$: tüm^{e}n : boltı :
tir : ^{a}n͡ça : bilin͡q$l^{e}r$: $^{a}s^{ı}qı$: $b^{a}r$: $^{e}dgü$: ekal[29] :

“Bir innab ağacı yüz oldu, yüz innab ağacı min oldu, min innab ağacı on min oldu” deyir. Belə bilin ki, qazancı var, yaxşıdır.

[29] damğasına bir xətt artıq qoyulub və bu da damğasına oxşayıb. Əmələ gələn bu səhv sözün oxunuşu da **ekal** olur.

33-cü ırk



oooo oo oooo

kidizig : subka : suu͡kmis : ᵃtkı : ur : kᵃtᶦqdı :
ba : tii[30] : ᵃn͡ça : bilin͡qlᵉr : yᵃblᵃk : ol :

“[Adamın biri] keçəni suya sokmuş. Daha çox vur, möhkəmcə bağla” deyib. Belə bilin ki, pisdir.

[30] **tii** yazılıb. Burada ikinci dəfə yox, yazılmaq istəndiyini düşünürük. Çünki damğası, damğasının simmetrik formasıdır. yazılmaq istənsə idi, ortasına əvvəl damğası çəkilər sonra ortasına xətt qoyulardı. Amma bunu görmürük. Ona görə sözün **tip** olma ehtimalı daha yüksekdir.

34-cü ırk



oo oooo oooo

k^{a}n : süke : b^{a}rmis : y^{a}qıq : s^{a}nn͡çmis : köçürü :
konturu : k^{e}lir : özi : süsi : ögire : s^{e}binü :
ordısın͡q^{a}ru : k^{e}lir : tir : ^{a}n͡ça : bilin͡q^{l}^{e}r :
^{e}dgü : ol :

“Xan əsgərlərin yanına gəlib, yağı hücum edib, yağını köçürüb, əsgərlərini ora yerləşdirib gəlir” deyir. Belə bilin ki, yaxşıdır.

35-ci ırk



oooo ooo oooo

^{e}r : süke : b^{a}rmis : yolta : ^{a}tı : ^{a}rmis : ^{e}r : kuqu :
kuska : sokusm^{i}s : kuqu : kus : k^{a}natın͡qa :
urup^{a}nın : k^{a}lıyu : b^{a}rıp^{a}n : ögin͡qe : k^{a}nqın͡qa :
t^{e}gürmis : ögi : k^{a}n͡qı : ögir^{i}r : s^{e}binür : tir :
^{a}n͡ça : bilin͡ql^{e}r : ^{e}dgü : ol :

“Bir kişi ordunun yanına gəlirmiş. Yolda atı yorulur. Bu kişi qu quşuna rast gəlir. Qu quşu onu qanadına alır, uçub anasına-atasına çatdırır. Anası-atası sevinir” deyir. Belə bilin ki, yaxşıdır.

36-cı ırk

oooo o o

üküs : ᵃtlˡq : ögrᵘnn͡çün͡q : yoo͡k : kobı : atlıq : korkˡn͡çın͡q :
yoo͡k : uçurᵘqluq : kutun͡q : yoo͡k : tir :
ᵃn͡ça : bilin͡qlᵉr : ᵃn͡yˡq : yᵃblᵃk : ol :

“Çox atlı[31] sevincin yoxdur, az atlı qorxun yoxdur, bayraqla bayram ediləcək taleyin yoxdur” deyir. Belə bilin ki, çox pisdir.

[31] **Çox atlı**, izdiham olacaq qədər çox insanın bir ayağa yığışması və yanlarında gələndə atlarını da gətirməsindən dolayı, yaranan şərait.

37-ci ırk



o ooo oooo

bir : k^{a}rı : öküzüg : bilin : biçe :
kumur^{u}sqa : yimis : k^{a}msayu : umatın :
turur : tir : ^{a}n͡ça : bilinql^{e}r : y^{a}bl^{a}k : ol :

“Bir qoca öküzün belini qarışqa kəsib (dişləyib)-yeyib. Öküz tərpənib durur” deyir. Belə bilin ki, pisdir.

38-ci ırk



ooo o oooo

k^{a}mıs : ara : k^{a}lmis : t^{e}n͡qri : unam^{a}dū̆k : bın͡çu :
k^{a}tun : bolzun : tir : ^{a}n͡ça : bilin͡ql^{e}r :
^{e}dgü : ol :

“Qamışlar arasında qalmışdı, Tanrı buna razı olmadı, onun üçün qərar verdi ki, xatun olsun” deyir. Belə bilin ki, yaxşıdır.

39-cu ırk



oo oo oooo

t^{a}qıq : t^{e}rt^{e}rü : kisemis : k^{a}msayu : umatın :
turur : tir : ^{a}ñça : biliñql^{e}r : y^{a}bl^{a}k : ol :

“Gözəl baxımlı at kişnəyir, tərpənib durur” deyir. Belə bilin ki, pisdir.

40-cı ırk

oooo oooo o

t^{a}l^{ı}m : urı : y^{a}r^{ı}n^{a}ça : y^{a}sıçin : y^{a}l^{ı}m : k^{a}y^{ı}q : y^{a}ra :
uru͡p^{a}n y^{a}l^{a}n͡qusun : yorıyur : tir : ^{a}n͡t^{a}q : ^{a}lp :
